**2021-ci il ərzində Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən etik davranış məsələləri üzrə görülmüş tədbirlər barədə məlumat**

Hər il olduğu kimi, 2021-ci il ərzində də miqrasiya orqanları əməkdaşları tərəfindən etik davranış qaydalarına əməl olunması, onların fəaliyyətində şəffaflığın və səmərəliliyin, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması əsas götürülmüşdür.

Cari il ərzində koronavirus infeksiyasına qarşı mübarizə ilə bağlı sanitar-epidemioloji qaydalara riayət edilməklə miqrasiya orqanları işçiləri tərəfindən etik davranış qaydalarının mənimsənilməsi üçün seminarlar keçirilmiş, “Azərbaycan Respublikasının miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış qaydaları”, “Miqrasiya orqanları işçilərinin daxili intizam qaydaları”, “Miqrasiya orqanlarının fəaliyyətində korrupsiyanın və maraqların toqquşmasının qarşısının alınması”, “Miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış qaydaları və bu qaydaların pozulmasına görə məsuliyyət”, “Etik davranış qaydaları və korrupsiyaya qarşı mübarizə”, “Etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması”, “Vətəndaşların qəbulu və müraciətlərinə baxılması qaydaları, bu sahədə qanunvericiliyin tələbləri, innovativ yanaşmalar və qarşıda duran vəzifələr” və “ASAN xidmət” mərkəzlərinə müraciət edən vətəndaşların məmnunluğunun təmin edilməsi Xidmətin fəaliyyətinin prioritet istiqamətidir” mövzuları daxil olunmaqla onun təbliği təmin edilmişdir. Etik davranış qaydaları ətrafında Dövlət Miqrasiya Xidmətinin iclaslarında və müşavirələrdə geniş müzakirələr aparılmış və bu sahədə icrası zəruri olan tapşırıqlar verilmişdir.

Həmçinin, Dövlət Miqrasiya Xidməti yanında İctimai Şura ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində İctimai Şuranın sədri Azər Allahverənov tərəfindən 24 may 2021-ci il tarixdə Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün “Etik davranış qaydaları” mövzusunda təlim keçirilmişdir.

Eyni zamanda, miqrasiya orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli, o cümlədən etik davranış qaydalarına əməl olunmasına nəzarət məqsədilə Xidmət üzrə məsul şəxs təyin edilmişdir.

Hesabat ilində miqrasiya orqanı əməkdaşlarının qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür. Belə ki, bu istiqamətdə cari il ərzində “Azərbaycan Respublikası miqrasiya orqanlarında qulluq keçən işçilərin etik davranış Qaydaları”nda göstərilən vəzifələrin icrası zamanı etik davranış və intizam qaydalarını pozmuş 2 əməkdaşa “irad tutma”, 3 əməkdaşa “töhmət”, 2 əməkdaşa “şiddətli töhmət” intizam tənbehi tədbirləri tətbiq edilmişdir. Həmçinin, 2021-ci il ərzində vəzifələrinin icrası zamanı etik davranış və intizam qaydalarını kobud şəkildə pozmuş 2 əməkdaş miqrasiya orqanlarından xaric edilmişdir. Hazırda, miqrasiya orqanlarında etik davranış qaydalarına ciddi riayət edilməsi istiqamətində tədbirlər davam etdirilir.